*Azər HÜSEYNOV*
***Nəsimi Rayon Bələdiyyəsinin sədr müavini***

# QİBTƏ ETDİYİM DƏYƏRLİ İNSAN

Mənim həyatda yaxşı mənada qibtə etdiyim şəxsiyyətlər arasında mənəvi keyfiyyətləri qarşısında baş əyməyə hazır olduğum insanlar az deyildir. Belə şəxsiyyətlərdən biri də dərin hörmət bəslədiyim, sözün əsl mənasında böyük insan, görkəmli pedaqoq Abuzər Xələfovdur.

44 ildən artıq tanıdığım müəllimin A.Xələfov yaddaşıma prinsipial, büllur kimi pak, əməksevər pedaqoq, qayğıkeş insan kimi həkk olunmuşdur. Tarix elmləri doktoru, professor, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, respublikanın əməkdar mədəniyyət işçisi fəxri adlarını şərəflə, ləyaqətlə daşıyan A.Xələfov bu mötəbər titullara yalnız öz gərgin elmi axtarışları, bu elmi axtarışların bəhrəsi olan bir neçə dəyərli dərslik, monoqrafiya və yüzlərlə əsərləri ilə nail olmuşdur.

Kitabxanaşünaslıq elminin formalaşmasında böyük xidmətləri olan A.Xələfov həm də respublikamızda bu elmin inkişafına böyük təkan verən kitabxanaşünaslıq kafedrasının yaradıcısıdır. A.Xələfov 40 ildən artıqdır ki, bu kafedraya rəhbərlik edir.

Bu istedadlı alim Azərbaycanda kitabxanaçı kadrların hazırlanmasında, gənc nəslin yetişdirilməsində böyük əmək sərf etmişdir. Belə ki, 1962-ci ildə BDU-da kitabxanaçılıq fakültəsinin yaranmasında xüsusi əməyi olmuş A.Xələfov həmin sahə üzrə kadrlara olan böyük tələbatı nəzərə alaraq, fakültənin axşam və qiyabi şöbələrini təşkil etmişdir. Kitabxanaşünas alimlərin yetişməsində və formalaşmasında da böyük əmək sərf etmiş onlarla elmlər namizədi hazırlamışdır.

A.Xələfov müdafiə şurasının üzvü kimi də fəallıq göstərir. Bu mənada o, BDU-nun tarix ixtisası üzrə müdafiə şurasının və Rusiya Federasiyası Dövlət Kitabxanası müdafiə şurasının üzvüdür.

Təhsil Nazirliyində təşkil olunmuş kitabxanaşünaslıq və biblioqrafiya vahid elmi metodik şurada onun sədr kimi fəaliyyəti çox səmərəlidir. Bir çox tədris proqramları, tövsiyələr, kitabxanaşünaslıq və biblioqrafiyaya dair araşdırmalar məhz bu komissiyada öz həllini tapmışdır.

Professor A.Xələfovun uzun illər səmərəli elmi-pedaqoji fəaliyyəti nəzərə alınaraq o, müstəqil Azərbaycanın «Şöhrət» ordeninə layiq görülmüşdür.

Məmnunluq hissi keçirirəm ki, sevimli müəllimim, böyük insan Abuzər müəllimin 70 illik yubileyi qeyd edilir. Tələbəsi kimi mən ona möhkəm cansağlığı, ailə səadəti, elmi-pedaqoji işində uğurlar arzu edir və Ulu Tanrıdan diləyirəm ki, zəkası daha iti, qələmi işlək olsun!